# Silahlı Qüvvələrimiz istənilən vəzifəni layiqincə yerinə yetirmək gücündədir




**Azərbaycan xalqı artıq beş ilə yaxındır ki, tarixi Qarabaq torpaqlarının erməni işğalından azad olunmasının sevincini, qürurunu yaşayır. Bu inanılmaz qələbəni, böyük Zəfəri bizə yaşadan Şanlı Azərbaycan Ordusu və Ali Baş Komandan İlham Əliyevin sayəsində dövlətimizin və xalqımızın dünyadakı nüfuzu artdı. Rəhbər, ordu və xalq birliyinin nələrə qadir olduğunu, hansı xarüqələr yarada bildiyini hər kəs gördü. Bu vəhdət Vətən müharibəsində Qələbəni şərtləndirən başlıca amil oldu. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə gecə-gündüz çalışan mülki insanlar, bütövlükdə xalqımızın bir yumruq kimi həmrəylik nümayiş etdirməsi düşmənə sarsıdıcı zərbə oldu. Əldə olunan zəfər Ordu quruculuğunun qüsursuzluğundan, hərbçilərimiz arasında vətənpərvərlik hissinin və peşəkarlığın yüksək səviyyədə olmasından xəbər verir. II Qarabağ müharibəsində Azərbaycan Ordusunda bir nəfər də fərari olmadı. Yaralı əsgər və zabitlərimiz müalicələrini yarımçıq qoyub döyüş meydanına qayıdırdılar. 2023-cü ilin 19-20 sentyabr tarixlərində baş tutmuş bir günlük lokal antiterror tədbirləri nəticəsində də Azərbaycan Ordusu növbəti dəfə yüksək peşəkarlıq və hərbi güc nümayiş etdirdi. Xankəndidə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə keçirilən növbəti qələbə paradı isə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

Uzun illər Azərbaycan ərazisində kök salmış erməni separatizminə son qoyulması, ölkə ərazisi üzərində konstitusiya quruluşunun tam bərqərar olması böyük tarixi və siyasi əhəmiyyətə malikdir. Azərbaycanda ordu quruculuğu birmənalı olaraq xalqımızın Ulu Öndəri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı.

Müstəqilliyinin ilk illərində ayrı-ayrı sahələrdə olduğu kimi ordu sistemində də vəziyyət ürəkaçan deyildi. Siyasi rəhbərlik Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda nizami ordu yaratmaq kimi məsuliyyətli bir vəzifəni yerinə yetirə bilmədi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmən torpaqlarımız işğal etdi. Belə bir ağır şəraitdə xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev nizami ordu quruculuğu prosesinə start verdi. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə nail olundu. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Eyni zamanda, Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalayıb. Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və



Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin yaradılması peşəkar kadr hazırlığı istiqamətində atılmış mühüm addımlar idi. 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu daha da peşəkarlaşdı, modernləşdi. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən Ali Baş Komandan İlham Əliyevin qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda hərbi sənaye kompleksi yaradıldı. Hazırda Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Milli Ordunun müdafiə qüdrəti və döyüş qabiliyyəti artırılır, maddi-texniki təchizat daha da yaxşılaşdırılır. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur.

2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsi və 2023-cü il 19 sentyabr əməliyyatları Azərbaycan Ordusunun gücünü bütün dünyaya göstərdi. Nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alıb.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılıb. İki ölkənin silahlı qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və həyata keçirilən çoxsaylı birgə təlimlər bu gün də davam etdirilir. Bu gün Azərbaycan Ordusu istənilən maneəni dəf etmək, istənilən vəzifəni icra etmək əzmindədir.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**